*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 485-490*

https://doi.org/10.62837/2025.8.485

**EMİLİYA NATİQ QIZI ƏLİYEVA**
Emiliya.Aliyeva@au.edu.az
0000-0002-0275-8419
Azərbaycan Universiteti,
Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli, 71

# Cəmiyyətin Güzgüsündə Qadın Obrazı: K. B. ROUZUN "ÇİNAR AĞACI" VƏ H. Z. UŞAQLIGİLİN "EŞQİ-MƏMNU" ROMANLARINDA sosial azadlıq probleminin təzahür xüsusiyyətləri

**Xülasə**

Bu məqalədə Kristin Bruk Rouzun "Çinar ağacı" və Xalid Ziya Uşaklıgilin "Eşqi-məmnu" romanlarında Qərb və Şərq ənənələrində qadın problemi müqayisəli şəkildə tədqiq olunur. Qadının özünüidentifikasiyası, ictimai gözləntilər və ailə vəzifələri arasındakı daxili konflikt araşdırılır. Personajlar vasitəsilə azadlıq, böhran və sosial qınaq kimi mövzular əks olunur. İş modern və ənənəvi şəraitdə gender münasibətlərinə qısa baxış təqdim edir.

**Açar sözlər:** Kristin Bruk Rouz, qadın, xəyanət, Çinar ağacı, Bihtər.

**Giriş.** Hər hansı bir yazıçının yaradıcılığına və ya konkret əsərinə yalnız onun daxili məzmunu çərçivəsində, digər müəlliflərin yaradıcılıqlarından və ümumilikdə dünya ədəbiyyatının inkişaf kontekstindən təcrid olunmuş şəkildə yanaşmaq tədqiqatçının həmin yazıçının ədəbi dünyasının dərinliklərini anlamaq imkanlarını məhdudlaşdırır. Cəlil Məmmədquluzadə yaradıcılığına həsr etdiyi tədqiqat işində, professor Qorxmaz müəllim Quliyev yazıçının pyeslərinin çağdaş teatrla (absurd teatr) müqayisəsinə həsr olunmuş hissədə yazır: "... müqayisəyə cəlb olunan hadisələr zaman, məkan, dünyaduyum və dünyagörüş tərzi baxımından bir-birindən nə qədər uzaq olsalar, onların qarşılıqlı şərhi bir o qədər qeyri-adi, süni, göydəndüşmə görsənər. Lakin incəsənət hadisələrinin araşdırılmasının başqa yolu yoxdur... Hər hansı bədii əsərin insanı, cəmiyyəti, dünyanı əks etdirmək prosesini həqiqətən adekvat şəkildə üzə çıxarmaq istəyiriksə, diaxronik, sinxronik, diaxronik-sinxronik kəsiklərdə estetik gərginlik yaratmalıyıq". [5, s 88] Dünya ədəbi hadisələrinə məhz bu şəkildə yanaşmaq zərurətindən çıxış edərək oxucuya təqdim olunan bu araşdırmada XX əsrin 50-ci illərində bədii yaradıclığa atılmış cəsarətli Britaniya yazıçısı Kristin Bruk Rouzun (1923-2012) "Çinar ağacı" ( The Sycamore Tree) və XIX əsrin sonu Türkiyə ədəbiyyatında çağdaş romanın atası da adlandırılan, "Sərvəti-fünun" ədəbi cərəyanının nümayəndəsi Xalid Ziya Uşaklıgilin (1865-1945) "Eşqi-məmnu" romanlarında qadın və cəmiyyət, ailə münasibətləri, xəyanət, gender

transformasiyası məsələlərinə hər iki əsərin müqayisəli təhlili nəticəsində aydınlıq gətiriləcəkdir.

**Qərb perspektivi.** XX əsr Avropa ölkələri öz inkişaf yolunun ən mürəkkəb və sarsıdıcı mərhələsini yaşadı, iki böyük dünya müharibələri ilə tarixinin bəlkə də ən ağır imtahanından keçərək, bütün bu hadisələr nəticəsində insanlarının adət etdiyi, kanon hesab olunan düşüncə, həyat tərzinin yenidən dəyərləndirilməsinə zəmin yarandı. Yarıməsrlik bir yaradıcılıq yolu keçmiş Kristin Bruk Rouz bütün bu dövr ərzində Britaniya, eləcə də Avropa həqiqətlərini realist, strukturalist, postmodernist romanları vasitəsilə özünün multikultural, feminist, süni intellekt və dil, insanlararası ünsiyyət, rasizm və başqa bu kimi qlobal məsələlərə dair görüşlərindən tutmuş insan psixikası, sosial münasibətlər, sevgi, xəyanət, ailə problemləri və s. mövzuları özünəməxsus şəkildə işləyib oxucularına təqdim etmişdir. Müharibədən sonra sosial və mənəvi baxımdan parçalanmış London cəmiyyətini təsvir edən müəllif, romanlarında insanların mənəvi dirçəlişi, kimlik bərpası və dağılmış dəyərlər içində yaşamaq mübarizəsini ön plana çəkir.

Tədqiqata cəlb olunmuş "Çinar ağacı" (1956) romanı ənənəvi romanın bütün tələblərinə cavab verir, süjet, personajlar, hadisələr isə 50-ci illərin Britaniya reallıqlarının bədii inikasıdır. Hekayədə olaylar belə cərəyan edir. Qael Cekson evlidir, üç uşağı var, italyan əsilli arvadı Nina cazibədar, intellektual, ağıllı qadındır. Ərini sevir, ailəsinə bağlıdır, məişət məsələləri ilə yaxından maraqlanır. Lakin Hovardla tanış olduqdan, gizli eşq münasibətləri irəlilədikdən sonra qadının tamamilə başqa tərəfləri, şəxsiyyətinin gizli məqamları üzə çıxır. Qadın cəmiyyətin tələbləri və şəxsi azadlıq kimi iki qütbün arasında şəxsiyyət parçalanmasından əziyət çəkir. " With him she, became vulgar, sensual, knowing. A hard look began to mask her features... At home she was happy and chattery with the children and Frieda, kittenish and loving with Gael"[3, s 153] - Onunla ikən kobud, ehtiraslı və təcrübəli olardı. Sərt baxışları üz cizgilərini maskalamağa başladı... Evdə isə uşaqlarla və Frieda ilə xoşbəxt və danışqan, Gael ilə isə pişik kimi şirin və mehriban idi (E.Ə.) Ruhi vəziyyətinin tamamilə ağırlaşması nəticəsində psixi xəstəxanaya belə yerləşdirilir.

1950-ci illərdə qadının patriarxal dövr imicini geri qaytarmağa cəhd olunsa da artıq sərbəstliyin dadını sınamış qadın cəmiyyətdəki mövqeyini əldən vermək istəmədi. Nəticədə qadın artıq öz həqiqətlərini cəmiyyətə sırımaq, əvvəllər rədd olunmuş davranış biçimi normallaşdırmaq yolunda iri addımlar atdı. 1960-cı illərin feminist hərəkatı bu tendensiyaların məntiqi nəticəsi idi.

Bir qadın yazıçı kimi Bruk Rouz bu ab-havanı udub qələmə sarılmışdı. Yuxarıda da qeyd olunduğu kimi, yazıçı cəmiyyətin inkişaf istiqamətini biçimləndirən hadisələri öz gözləri ilə görmüş, dövrü yaşamış, Avropa həqiqətlərinin şahidi olmuşdur. Ərinə xəyanət edən Nina hər kəsdən öncə müəllifinin sanki himayəsindədir. **"**Nina was morose. She was honest enough to hate this kind of

double deception. It was one thing to deceive in someone's absence. To behave differently with two people in different places and at different times; it was quite another to put on the casual manner before them both, being watched by both." [3, s 203]- Nina qəmgin idi. O, bu cür ikiqat rol oynamağa nifrət edəcək qədər dürüst idi. Birinin yoxluğunda aldatmaq- iki insanla, fərqli yerlərdə və fərqli vaxtlarda fərqli davranmaq — bu başqa bir şey idi; amma hər ikisinin qarşısında, hər ikisi tərəfindən izlənilərkən, rahat davranış nümayiş etdirmək tamamilə başqa bir şey idi." Hovardın ona hər ikisinin ailələrini bir araya gətirmək, ziyafətdə görüşmək təklifi qarşısında Nina əvvəlcə buna etiraz edir, "And she knew Gael well enough to understand that, even if he suspected nothing, he loathed the hypocrisy of chumminess after a serious dispute. She had consequently refused point-blank to fall in with Howard's suggestion" - Və o, Gaeli kifayət qədər yaxşı tanıyırdı, başa düşürdü ki, Gael heç nədən şübhələnməsə belə, ciddi münaqişədən sonra saxta dostluq nümayiş etdirməkdən nifrət edir. Buna görə də o, Hovardın təklifinə açıq şəkildə etiraz etmişdi. [3, s 203] (E. Ə).

Romanın digər qəhrəmanı Elizabeti də eyni aqibət yaxalayır, belə ki, universitetdə müəllim çalışan qadın macar tələbəsi Zoltanla gizli münasibət içindədir. Əri Hovardın Nina ilə münasibətini hiss edir, lakin bu sirri ifşa etmir, hətta Ninanı xəstəxanada ziyarət belə edir. Qadınlar səmimi söhbət edib vidalaşırlar, ikisi də bir-birinin halına acıyır.

Ninanın daha bir vacib dəstəkçisi də əri Qaeldir. O, nəcib xarakteri ilə arvadını son anına qədər tək buraxmır. Nina həyata gözlərini bağlayanda Qael onun başında göz yaşı tökür. Qael Ninanın əzablarını hiss edir, onu anlayırdı. Ninanın etirafını səbrlə dinləyib onun əlini buraxmır.

**Şərq perspektivi.** Tədqiqata cəlb etdiyimiz digər "Eşqi-məmnu" romanı XIX əsrdə Şərqdə qadın probemi, gender transformasiyası kimi məsələlərin tədqiqi baxımdan aktual əsər hesab oluna bilər. Türkiyə realist ədəbiyyatı tarixində önəmli yeri olan görkəmli yazıçı Xalid Ziya Uşaqlıgil yaradıcılığı, xüsusilə də "Eşqi-məmnu" romanı kifayət qədər tədqiq olunmuş, romanın əsasında son dönəmlər bir neçə televiziya filmi ərsəyə gəldikdən sonra sözügedən hekayə yenidən gündəmə gəlmiş, roman, eləcə də yazıçının bədii irsi müxtəlif istiqamətlərdən öyrənilmişdir. Lakin təqdim olunan tədqiqat işində "Eşqi- məmnu" romanının Kristin Bruk Rouzun bədii irsi ilə müqayisə kontekstində sərf-nəzər edilərək, Britaniya və Türkiyə ədəbiyyatlarında xəyanət mövzusu və qadın probleminin müqayisəli tədqiqi, hər halda, məqalənin orjinallığını təmin edir.

Romanın əsas qəhrəmanı Bihtər türk ədəbiyyatında unudulmaz və mürəkkəb obrazlardan biridir. Bihtər sevgi, ehtiras və cəmiyyətin qoyduğu sərhədlər arasında qalan, daxili mübarizə aparan bir qadındır. O, maddi və sosial rahatlıq üçün yaşlı, varlı Adnan bəy ilə evlənir, amma ürəyində həqiqi sevgi yox idi. Bihtərin sevgisi

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 8, 2025
Səh. 485-490

ərinin gənc qohumu Bəhlula qarşı idi və bu qadağan olunmuş sevgi onu böyük çətinliklərə, faciəyə sürüklədi.

Şərqdə xəyanətə münasibətdə isə cəmiyyət o qədər də tolerant deyildi. Bihtərin durumu, əlbəttə ki, Ninanınkından fərqlənirdi. Hər nə qədər Türkiyənin Qərbə qapı açdığı dönəmin məhsulu olsa da roman müəllifinin öz kökündən qopmadığını göstərir. Yazıçı yaratdığı personajların daha çox xəyali xarakter daşıdığını etiraf etsə də, roman XX əsrə keçid mərhələsindəki qadın problem, gender məsələsi mövzularına işıq salır. “H. Ziyanın kahramanları ne kadar piyanoda Chopin çalsalar, Alexandre Dumas okusalar, redingot giyseler ve XIV Louis mobilyalarıyla evlerini döşeseler de bizim insanımızdır.” [2, s 191-192]

“Sonra Bihter vicdanının azabından, ihanetinin bu alçaklığından söz etmek istedi; bunlardan söz ederse bir cinayet itirafından duyulan hafifliği bulacağı zannına kapılmıştı. Fakat sesinde bir şey fark ediyordu ki bu kendi kulaklarında bile yanlış bir nağmenin etkisini uyandırıyordu. Yoksa bu söyledikleri hep yalan mıydı? Hiçbir vicdan azabı duymuyor, bu ihanetinin alçaklığını ruhunun samimiyetiyle hissetmiyor muydu? ...” [6, s 206]

“Bu ilk aşk günahından sonra Bihter hastalanmış gibiydi, Behlül'ün odasından çıkınca hiçbir şey duymamıştı. Bütün hissini uyuşturan bir uyku içindeydi. Bir şey düşünmeyecek hep susmak istiyordu. Yatağına girince hemen uyumuştu; fakat sabahleyin gözlerini açar açmaz, henüz yatağından kalkmadan, bütün o çirkin hakikati kendisiyle beraber uyanmış buldu. Demek bu sabah Bihter her sabahkinden başka bir Bihter’di. Artık talihsiz, talihsizliğine acınacak bir kadın değil, bir daha silinmeyecek bir lekeyle kirlenmiş, alçak, pis bir mahluktu” [6, s 184]- cümlələri ilə anladılır Bihtərin gizli münasibəti. Və yazıçının mövqeyi aydın sezilir. Xəyanət qəbuledilməzdir, ləkədir. Qadın bunu çox yaxşı dərk edirdi. Bihtərin də ruhi vəziyəti sürətlə dəyişilir və o da Nina kimi şəxsiyyət parçalanmasından əziyət çəkir. İztirabları başlayır, nəinki Nina kimi psixoloji dəstək almağa imkanı, hətta vəziyyətini anlamağa bir kimsəsi də olmur. Qadın tamamilə yalnızdır. Əri Adnan, məşuqu Behlül, bacısı Peykər, hətta sonda sirrini etiraf etsə belə anası da ona dəstək ola, əlini tuta bilmir. “Oh! Bunu söylemeye kuvvet bulsaydı, kendi cinayetinin intikamını yine kendi alsaydı o lekeden kendini temizlemiş olacaktı. [6, s 184] – Bihtər öz aqibəti ilə baş-başadır. Məlum sonu da özü seçməli oldu.

Bu iki personajı müqayisə edərkən məkan faktoru qədər zaman da həlledici amil kimi nəzərə alınmalıdır. Bihtərlə Ninanı bir birindən yarım əsr ayırırdı. Dünya tarixində ən gərgin hadisələrlə dolu yarım əsrlik zaman kəsimi! “Osmanlı kadını, Tanzimat dönemine kadar bazı konularda kısıtlanmış bir şekilde yaşamını sürdürdü. Ülke içerisindeki gelişmeler doğrultusunda, mevcudiyetlerini II. Meşrutiyetle ortaya çıkarmaya başladılar. Meşrutiyet ile bazı haklara sahip olmuşlardı. Artık kızlar için eğitim başlamış, miras hakları doğmuştu. II.Meşrutiyet’in ilanı ile birlikte kadınlar, çalışma hayatında da boy göstermeye başlamışlardır. Özellikle o

dönemde savaşa giden erkeklerin yerine boş kalan memurluklara yerleştirilmişlerdir.” [1]

XIX əsr Osmanlı İmperiyası üçün təkcə siyasi və iqtisadi transformasiyalar dövrü deyil, həm də sosial dəyişikliklərin başladığı bir mərhələ oldu. Bu dəyişikliklər arasında qadınların cəmiyyətdəki mövqeyi və hüquqları da önəmli yer tuturdu. Ancaq qadın haqları məsələsi o dövrdə hələ tam inkişaf etməmiş, çoxsaylı məhdudiyyətlər və ənənəvi stereotiplər qadınların sərbəst seçiminə hələ də əngəl idi.

**Nəticə.** Həm Kristin Bruk Rouzun “Çinar ağacı”, həm də Xalid Ziya Uşaklıgilin “Eşqi-məmnu” romanlarında qadın obrazlarının taleləri fərqli coğrafiyalarda, müxtəlif zaman və ictimai şərtlərdə formalaşsa da, hər iki əsər qadının cəmiyyətdəki mövqeyinin, azadlıq arzusunun və şəxsiyyət mübarizəsinin ortaq ağrılarla müşayiət olunduğunu göstərir. Qərbdə qadınların müharibədən sonra əldə etdikləri sosial azadlıqlar onları ictimai həyata inteqrasiya etsə də, bu proses şəxsiyyət parçalanması, ailədaxili gərginlik və mənəvi boşluq kimi yeni problemlərlə müşayiət olunur. Şərqdə isə qadının cəmiyyət və ailə qarşısında məsuliyyət yükü daha sərt patriarxal qaydalar çərçivəsində çəkilir və bu zaman mənəvi münaqişələr daha dərin faciələrlə yekunlaşır. Hər iki əsərdə qadın obrazları yalnız xəyanət və sevgi ətrafında deyil, həm də sosial ədalət, azad seçim və insan psixologiyasının mürəkkəb qatları fonunda təqdim olunur. Beləliklə, Rouz və Uşaklıgilin romanları qadın problemi kimi universal bir mövzuya Qərb və Şərq perspektivlərindən baxaraq həm oxucuya, həm də tədqiqatçıya fərqli düşüncə platformaları təqdim edir.

***E. N. Aliyeva***

**The Image of Woman in the Mirror of Society: Manifestations of the Problem of Social Freedom in K. B. Rouz’s *The Sycamore Tree* and H. Z. Ushakligil’s *Forbidden Love***

**Abstract**

The article compares the women's issue in Western and Eastern traditions based on the novels *Sycamore* by Christine Brooke-Rose and *Forbidden Love* by Halid Ziya Uşhaklıgil. It examines the internal conflict of women between self-identity, social expectations, and family duties. Through the characters, themes of freedom, crisis, and social condemnation are explored. The study offers a brief overview of gender relations in modernity and tradition.

**Keywords:** Christine Brooke-Rose, woman, betrayal, The Sycamore Tree, Bihter

***Э. Н. Алиева***

**Образ женщины в зеркале общества: особенности проявления проблемы социальной свободы в романах К. Б. Роуз «Сикомор» и Х. З. Ушаклыгил «Запретная любовь»**

**Резюме**

Статья сравнивает женский вопрос в западной и восточной традициях на основе романов Кристин Брук Роуз «Сикомор» и Халида Зии Ушаклыгиля «Запретная любовь». Рассматривается внутренний конфликт женщины между самоидентификацией, общественными ожиданиями и семейными обязанностями. Через образы раскрываются темы свободы, кризиса и социального осуждения. Предлагается краткий обзор гендерных отношений в модерне и традиции.

**Ключевые слова:** Кристин Брук-Роуз, женщина, измена, Сикомор, Бихтер

## Ədəbiyyat siyahısı:

1. Acar, H. (2019). Türk kültür ve devlet geleneğinde kadın. *İnsan & İnsan*, 6(21), 395–411. https://doi.org/10.29224/insanveinsan.536610
2. Atay, O. (2005). *Günlük*. İstanbul: İletişim Yayınları.
3. Brooke-Rose, C. (1958). *The Sycamore Tree*. London: Secker & Warburg.
4. Myrdal, A., & Klein, V. (2001). *Women's Two Roles: Home and Work*. New York: Routledge.
5. Quliyev, Q. H. (2012). *Cəlil Məmmədquluzadə və dünya dramaturgiyası*. Bakı: Apostrof.
6. Uşaklıgil, H. Z. (2019). *Aşk-ı Memnu*. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları

**Rəyçi: f.e.d., prof. Qorxmaz Quliyev**